# DANIŞDIR"



**- Cavid bəy, heç fala baxdırmısınız?**

- Yox, heç ağlımdan da keçməyib. Məşhur söz var: hər kəsə layiq olduğu tale verilir. Ona görə inanmıram belə şeylərə. İnsan özünü bir dəfə inandırdısa, bu adət halını alacaq. Bir dəfə Akademik Milli Dram Teatrının qarşısında dayanmışdım, bir qız yaxınlaşıb pul istədi. Xırdam yox idi, ona görə üzrxahlıq etdim. Qız üzümə baxıb başladı ümumi sözlər deməyə. Təxminən belə ki, sadəlövh olma, dostlarına çox inanma, onlar səni aldadacaq, sənin gözləntin var, bu yaxınlarda o həyata keçəcək filan. Sonra göz qırpımında əl atıb saçımdan bir tük qopardı ki, bunu pulla götür. Necə yəni pulla? Bəs əlində pul olmalıdır, yoxsa düşər-düşməzi olar. Mənim də cibimdə birdə əlliliyim vardı, onu da falçıya verəsi deyildim. Və beləcə, "falım" yarımçıq qaldı.

**-Qəribə taktikadır. Əslində, qaraçılara bəlli münasibət var, oğrudurlar, fırıldaqçıdırlar, tovlayıcıdırlar. Lakin romandakı qaraçı qadın sizi şamana aparan vasitədir, xeyirxah, mehriban, ayağında qırmızı "Mariana" corablar... Başına sığal çəkilən mehriban qızcığazın anası... Üzeyir ona etibar edir, evinəcən gedib çıxır...**




- Mən kimliyindən asılı olmayaraq, insana bu cür yanaşılmasının tərəfdarı deyiləm. İnsan inanmalı, zəhmət çəkməyi öyrənməli, xoş düşünməli, işıqlı fikirlərlə yaşamalıdır. Yerdə qalan hər şey qaydasına düşür. Necə ki, mənim qəhrəmanım bunun nəticəsindən məqsədinə çatır.

**- Belə bir fikir var ki, yazıçı əsərində mütləq öz dövrünün siyasi-ictimai həyatına toxunmalı olur...**

- İctimai-siyasi məsələlərə mesajlar, göndərişlər olmalıdır. Ümumən əsərin bəlli fəlsəfəsi, söykənəcəyi olmalıdır. Əslində, Üzeyir obrazı gənclərin sosial problemlərə, insanlar arasındakı sağlam olmayan münasibətlərə etirazdır.

**-Küçədə kiçik bir mitinqə hazırlıq...**

-Hə, mən belə şeylərə o vaxtlar çox rast gəlirdim, ona görə də səmimi olaraq fikrimi yazmışam. Daha doğrusu, qəhrəmanım onlara istehza edib. Bu, kiminsə inancına, əqidəsinə istehza deyil, ümumi yanaşmadır. O vaxtlar həmin səhnəyə görə məni sosial şəbəkələrdə təhqir edənlər də olmuşdu.

**- Niyə biz ən iyrənc səhnələrdən iyrənmirik? Ya mən iyrənmədim, əksini deyənlər oldumu?**

- Siz yeganə adamsınız ki, "iyrənmədim" deyirsiniz. "Günəşi gözləyənlər"i kim oxuyubsa, əvvəlcə vulqar məqamlara görə məni tənqid ediblər, sonra irad tutublar ki, qəhrəmanın xarakterində murdarlıq var. Hətta Kürdəmirdən olan bir yaşlı oxucu dedi ki, romanı oxuduğum gün dilimə çörək vura bilmədim. Bu mənada sizin timsalınızda istisna oxucu tapdığıma görə özümü təbrik edə bilərəm.

**- Amma bunlar həyatdır, elə deyilmi?**

- Əlbəttə. Həyatı olduğu kimi görmək, göstərmək yazıçı üçün çox vacibdir. Qalstuklu cümlələr yazıb, ütülü mətnləri ortaya çıxarmaq ilingünün bu vaxtında eyibdi. Təəssüf ki, bu eyib işi tutan xeyli sayda yazıçı, şairimiz var.

**- Başından da çox təbii görünür, həqiqətən bu canı boğazına yığılan adam gecənin yarısını küçədəki qadına hədə-qorxu gəlib onun on manatını ala bilərdi...**

- İnsanın içində işıq varsa, sevgi hissləri güclüdürsə, mərhəmət göstərməyi bacarırsa, bütün xırda günahlara görə dar ağacı qurmağa dəyməz.

**- Bir günlük fəhləlik də keçir qəhrəmanın başından. Bunları hardan görüb yazırdınız, təsəvvür edirdiniz, soruşurdunuz, öyrənirdiniz?**

- Mən fəhlə işləmişəm. Fəhlənin bütün düşüncələri, arzuları, istəkləri mənə doğmadır. Dərnəgülün taxta bazarında fəhləlik məktəbi keçib ədəbiyyata, jurnalistikaya gəlmişəm. Necə deyərlər, çinədanım doludur, bundan sonra fəhlə həyatından hələ çox şeylər yaza bilərəm.

**-Mətndə Üzeyirin özüylə qəddar dialoqları var, özünə lağ edir, özünə tərbiyə verir, özünü danlayır. Bu tənhalığa işarədir? Əsərdə onun kimi var, kimi yox, görünmür, amma uzaq bir kənd var, arxasıyca su atan ana var... Ümumiyyətlə, əlamətlərə inanırsınızmı?**

- Get-gedə inanıram. Bu həm də koloritdir, ənənəyə bağlılıq və inancla yaşamaqdır. Əlbəttə, kimlər üçünsə batil inanclar ola bilər. Amma görün, nə gözəldir: siz Şəkidən yola çıxırsınız və kimsə arxanızca su atıb alqış deyir: yolun açıq olsun, qızım. Pisdirmi?

**-Yəqin ki, pis olmazdı...**

-Su olmasın, xeyir-dua olsun, sizi gözləyən adamlar olsun, övladlarınız olsun...

**- Romanda əvvəldən sonacan Üzeyirə "ayaq bağı" olan bir uşaq var. Sevdim o uşağı...**

- Mənim ikinci romanımda da uşaq obrazı var. Son yazdığım iki hekayə də o cümlədən. Görünür, uşaq obrazı olmadan keçinə bilmirəm. Özü də bu, məhz mövzu kimi ağlıma gəlir. Sonradan əsərə daxil etmək söhbəti yoxdur. Yəqin ki, təhtəlşüur məsələsidir. Harada uşaq varsa, orda təmizlik var. Mənə görə uşaq obrazı əsərə fərqli rəng, hava gətirir. Bu hava, rəng məni özünə çox cəlb edir.

**- Bir də bir biskvit fabriki əhvalatı var. Xızır kimi peyda olub səssizcə itib gedən yazıq Qaragöz...**

- Mən Dərnəgüldə işləyəndə hər gün həmin fabrikin yanından keçib gedirdim. Bələdliyim vardı ordakı işlərə. O ki qaldı Qaragözə, mənim xeyirxahıma, hə, deyəsən, ona qarşı çox ədalətsizlik etmişəm. Bunu oxucularım da eşitdirdilər.

**-Cavid bəy, maraqlıdır, polis ərin Əqrəbdən ayrılandan sonrakı canfəşanlığı süni deyilmi?**

-İstək, ehtiyac heç vaxt süni olmur. Qadın gedirsə, onun arxasınca gələsi mütləq biri olur. Polis, həkim, mühəndis, çoban... nə fərqi. Bir qadının arxasında bir kişi boylanır və onun boşluğunu hiss edir. Həmin boşluğu doldurmaq çətin məsələdir.

**-Belə bir boşluq yaşanıbmı yazıçının həyatında? Ki, onu əsərində bu cür üzə vurub?**

- Ooo... Romandakı əhvalatlardan bir neçəsi həyatımda olub. Və sevinirəm ki, olub, geri boylananda xoş-naxoş nələrsə xatırlamaq olur. Yazıçılıq həm də yaddaşdır axı. Qadın yaddaşı, ehtiras yaddaşı, daş-divar yaddaşı, sıxıntı yaddaşı, çətinlik, mənəvi təbəddülat yaddaşı... Amma polislə qarşılaşmamışam, arzu da etmirəm...

**- Ad məsələsinə toxunaq - "Günəşi gözləyənlər"...**

-Bəli. Əsərin adını Əsəd Cahangir qoyub. Mən ad tapmaqda çox naşıyam. Ona görə kömək istədim. Əsərdə günəşi salamlamaqla bağlı bir yer var, xatırlayırsınızmı, ad ordan gəlir. Bir də bizim hamımız günəşi gözləmirikmi?

**-Yəni, uğurlu ad hesab oluna bilər. Amma həm də niyəsə "Küləklə sovrulanlar"ı xatırladım, mətn olaraq deyil, ad olaraq...**

-Mənim xoşuma gəlir. "Leyla"nın adına görə peşmanam. Dediyiniz isə heç ağlıma gəlməyib, bəlkə də təhtəlşüurdur.

**-Heyvanlarla münasibət necədir, heyvansevərsiniz, ya yox? Pişiyi öldürürsünüz, küçükləri yemləyirsiniz, siçandan danışmağa dəyməz. Firəngiz xalanın küçüklərə görə Üzeyiri evdən qovması var, dinin heyvanlara yanaşmasına münasibət, Üzeyirin o yerdəki mesajları əladır...**

-Heyvanları sevirəm. Birmənalı olaraq. Bir dəfə qardaşım zəng vurdu ki, iş yerinin yanında bir pişiyi maşın vurub, ayağı sınıb. İki gündür burda pis vəziyyətdə qalıb, necə kömək edə bilərik? Qardaşımın bu jesti mənə o qədər təsir etdi ki, Bakı şəhəri üzrə heyvanlara baxan stansiyanın direktoruna zəng vurdum, qardaşım pişiyi maşına qoyub apardı həkimə. Orada bir qızla rastlaşmışdı. Həkim pişiyin ayağını sarıyandan sonra qız pişiyi alıb özü ilə aparmışdı. İnsanlıq bir baxımdan da elə budur.

**-O qəribə ayindən sonra küçüklərin sağ qalmağına çox sevindim...**

-İnanın, mən romandakı bəzi detalları unutmuşam. Siz deyirsiniz, mən xatırlayıram, xoşdur ki, bu qədər yadınızda qalıb.

**- Pişik, yenə pişik. Bu dəfə yuxunuza gələn pişik. Nərminlə birgə. Pişikli, qəzəbli, qanlı, qorxulu yuxu...**

- Yuxularda fantaziya genişliyi əla olur. Adam belə şeyləri düşünsə, tapa bilməz.

**- Lap görülmüş yuxu kimi yazılıb...**

**- Yox, bu qəhrəmanın mənəvi-psixoloji durumunu göstərmək üçün bir vasitədir.** Psixoloji vəziyyəti yerində olmayan Üzeyir kimi o qədər gənclər var ki. Yuxusuna bu cür qorxulu səhnələr gəlir. Bir də görünür, bu detal oxucunu daha çox marağa salmaqdan irəli gəlir. Hər şeyə ədəbi nəzərdən baxmayaq. Oxucunu da düşünmək lazımdır və səmimi olmaq gərəkir. Bəlkə ona görə bu yuxunu yazmışam ki, oxucu kitabı daha maraqla oxusun, süjet onu arxası ilə aparsın.

**-Mən Şaman nənənin kiminsə öləcəyiylə bağlı xəbərdarlığından sonra qonşu uşağın xəstələndiyini oxuyanda qorxdum... Və məncə, siz qorxutmağı bacarmısınız...**

-Hə, bir neçə nəfər bunu mənə deyib. Deyəsən, o məqam yaxşı alınıb.

**-Bəli, amma o məqam nə qədər yaxşı alınıbsa da, Nərminin sonu zəif enib...**

- Nə mənada?

**- Romanda məni mətn baxımından narahat edən, sanki yerinə oturmayan daş kimi bir xətt var - Professor xətti. Onun qadınla keçmiş münasibəti, evini ələ keçirməyi, qadını əlacsız qoymağı, sonra qızın evi istəməsi, onun qızı oğurlatmaq, öldürmək planları. Axı bu adam professordur, mafiya üzvü deyil?**

-Məncə də. Görünür təcrübəsizlikdən irəli gəlir. İndi olsaydı, o xətti yazmazdım.

**-Redaktor buna diqqət yönəltməyibmi?**

- Ola bilər, nələrisə deyib, mən razılaşmamışam. Belə tərsliyim olur. (Gülür).

**-Bir də milli kitab müsabiqəsində iştirak var...**

- Bəli, romanı Milli Kitab mükafatına təqdim etmişdim. Özü də iddialı idim. Eşitdiyimə görə, münsiflər arasında ciddi fikir ayrılığı olub və bir bal əsəri onluqdan kənarda qoyub. Məncə, qısa siyahıya düşsəydi, yer tutacaqdı.

**-Müsabiqədən sonra kitab çıxdı. Necə oldu, özünüz çap etdirdiniz, təklif gəldi?**

-Kitab 2010-cu ildə çap olunub. O vaxt gənclər üçün nəzərdə tutulan birillik Prezident təqaüdü alırdım. Kitabı da həmin təqaüdün hesabına çıxardım. 500 tirajla nəşr olundu. Sonra min tirajla etmədiyimə görə təəssüfləndim. İndi özümdə 3-4 kitab qalıb. Amma romanı ikinci dəfə nəşr etdirməyi düşünürəm. Gələn il üçün planda hekayələr kitabının çapı var, onu başa gətirim, sonra romanın yenidən nəşri haqqında düşünəcəm.

**-Roman haqqında xeyli yazı yazıldı, bəyənənlər, bəyənməyənlər, müxtəlif fikirlər. İlk böyük həcmli əsər, gənc yaşda... Necəydi tənqidə tuş gəlmək?**

- Normal qarşıladım. Əsas tənqid vulqarlıqla bağlı oldu. Razılaşdığım, razılaşmadığım fikirlər oldu. Məsələn, bəzi fikirlər yazıldı ki, romanın dili bir qədər ağır, ləngərli olmalıdır, bu isə çaparaqdır. Bunu qəbul etmək olmaz, çünki bu tipli əhvalatlar, bu cür ab-havası, xarakterik qəhrəmanı olan romanın dili elə belə də olmalıdır. Bir də əsərin qəhrəmanı Üzeyirin xarakteri, insanlara, ətrafa münasibəti ilə bağlı tənqidi fikirlər eşidirdim. Normaldır. Məşhur fikirdə deyildiyi kimi: əsər yazıldısa, müəllifin deyil. Amma ümumən, əsər haqqında müsbət rəylər eşitdim.

**-Bəli, mən tanış oldum yazılanlarla, əsasən yaxşı fikirlərdir. Heç deyəsən, ikinci romanın - "Leyla"nın bəxti bu qədər gətirmədi...**

- Ümumən götürəndə bəli, birinci daha maraqla qarşılandı.

**-Cavid bəy, oxuculardan rəylər gəldimi romandan sonra? Yəni dostları nəzərdə tutmuram sizi tanımayan oxucuların.**

-Hə, çox oldu. Mənə də xoş olan o oldu ki, məni tanımayanlar xeyli fikirlər yazdılar. İmzam o romandan sonra tanındı. Ən çox verilən sual bu idi: romandakı hadisələr hamısı olub? Üzeyir sizsiniz?

**- Adamlar real insan həyatı oxuduqlarını düşünüblər, bu da uğurdur...**

-Həm də məsuliyyətdir. Oxucu qarşısında yaxşı əsərlərlə çıxmaq lazımdır. Üstəlik, yeni Azərbaycan oxucusu formalaşır, axtarır, seçir, dəyərləndirir.

**-"Günəşi gözləyənlər"i "doğma mətn" adlandırmaq olarmı?**

- Əlbəttə, "Günəşi gözləyənlər" mənim üçün hədsiz doğmadır. Səmimi deyim ki, "Leyla"dan o doğmalığı hiss edə bilmirəm.

**-Bəs ən bəxti gətirən mətniniz hansıdır?**

- Elə "Günəşi gözləyənlər". Bir də "Coğrafiya müəlliminin pencəyi" hekayəm. Bir də "Həsən maşın alacaq".

**-"Həsən maşın alacaq" mənim də sevdiyim hekayələrdəndir. Bilmək maraqlıdır, romanınız haqda danışmağımız sizə nə verdi?**

-Nə gizlədim, unutduğum şeylər varmış, suallar məni bir də mətnimə qaytardı, hətta bəzi yerləri yenidən oxudum. Yaddaşımı təzələdi, diqqətli, sevgili oxucu ilə qarşılaşdım. İndi belə şeylər hər vaxt ələ düşmür. Çox xoş oldu.

**-Roman nağıl kimi, xoşbəxt sonluqla bitir?..**

-Hə.

**-Lakin mən sondan əvvələ qayıtdım:**

**..."Dərnəgül taxta bazarında üç saata yaxın iş axtardım. Axır ki, mərhəmətli bir iş sahibi tapıldı. Öz dili ilə dedi, öz qulaqlarımla eşitdim:**

**-Sabahdan işə çıx!"...**

**Və mənim "Günəşi gözləyənlər"im məhz belə tamamlandı...**

*Söhbətləşdi:*

**Hədiyyə ŞƏFAQƏT**